# Mehriban türk xanımının uğur manifesti



Səhifə ⇨ 6

# Mehriban türk xanımının uğur manifesti



**Platon deyib ki: “Heç kim təsadüfən yaxşı insan olmur”. Yaxşı insan olmağa aparan yol genetik kod, qan yaddaşı ilə həmin ömrün sahibinə ötürülən xeyirxah əməllərə sədaqətdən keçir.**

**Uca yaradan Mehriban xanım Əliyevaya bütün bu gözəl əməllərin xələfi olmaq xoşbəxtliyini nəsib edib. O, böyük ziyalı, pedaqoq, yazıçı Mir Cəlal Paşayevin və Azərbaycan jurnalistikasının sonuncu mogikanlarından biri – Nəsir İmanquliyevin (bu sətirlərin müəlliflərinin ustad-müəllimi – red.) ocağında böyüyüb boya-başa çatıb. Mehriban xanımın elm xəzinəsindən və zəngin mənəvi keyfiyyətlərindən bəhrələndiyi valideynləri – texnika və kosmonavtika elmləri sahəsində tanınmış alim, akademik Arif Paşayev və nüfuzlu şərqşünas alim, AMEA-nın Şərqşünaslıq İnstitutunun ilk qadın direktoru Aida xanım İmanquliyeva görkəmli şəxsiyyətlərdir. Mehriban xanım Əliyeva həm də müstəqil Azərbaycanın qurucusu olan dahi Heydər Əliyevin və onun ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyeva ocağının gəlinidir.**

**Belə zəngin irslə təmasda olmaq, ata-baba yolunu onların adına layiq davam etdirmək, təbii ki, hər övladın, hər xələfin bacaracağı iş deyil.**

**“Hər şey bu və ya digər insanın öz vəzifəsinə nə dərəcədə ciddi yanaşmasından asılıdır. Aydın şəkildə dərk etmək lazımdır ki, müəyyən anda sən fərddən ictimai şəxsiyyətə çevrilirsən. Sən artıq təkcə özünü və ya ailəni yox, ölkəni təmsil edirsən. Bu barədə özünə hesabat verməli, sözlərində, qərarlarında, hərəkətlərində daha təmkinli olmalısan. Bu, çox məsuliyyətli yükdür...”**

Mehriban xanım Əliyeva bu şərəfli missiyanın və ağır yükün altından türk xanımına xas humanizm, mərhəmət və nəciblik kimi ali keyfiyyətləri ilə yanaşı, Tomris əzmkarlığı, Burla Xatun iradəsi ilə çıxmağı bacaran İnsandir. Onun çoxşaxəli missiyasının təməlində dövlətinə və millətinə bağlılığı və hər iki ampluada fədakarcasına xidməti dayanır. Bu xidmətin miqyası nə ölçüyə gəlir, nə də sərhəd tanıyır.

Ümumiyyətlə, Mehriban xanım Əliyevanın fəaliyyətindən söz açarkən ilk yada düşən onun insanlara təmənnasız yaxşılığı, qayğısı, mərhəməti və xeyriyyəçiliyidir. Bu yüksək insani keyfiyyətlər isə xalqımızın milli-mənəvi və mental-əxlaqi dəyərlər sisteminin təməl elementləridir. Mehriban xanım Əliyeva həmişə əhalinin sosial baxımdan ehtiyac içində yaşayan təbəqələrinə, xüsusilə xəstə və valideyn himayəsindən məhrum uşaqlara göstərdiyi diqqət və qayğısı ilə həmin dəyərlərin daşıyıcısı olduğunu çoxdan təsdiqləyib.

### Məhəbbət ünvanlı cazibənin sirri

Xalq nə üçün Birinci vitse-prezidenti bu qədər sevir? Ondakı bu ümumxalq cazibəsinin sirri nədədir? İnsanlar Mehriban xanımın timsalında onların qayğıları ilə yaxından maraqlanan, görüşlərdə rəsmiyyətdən, protokol qaydalarından kənara çıxmağı, hər bir fərdin probleminə münasibət bildirməyi, xəstə azyaşlının başına sığal çəkməyi bacaran, vətəndaşla canlı təmasdan zövq alan həmsöhbətlərini görürlər. O, daim əhalinin, sadə vətəndaşların yanındadır. Bu onu göstərir ki, xeyirxahlıq və mərhəmət kimi müsbət keyfiyyətlər, ülvi hisslər onun sevgi dolu qəlbindən gəlir. Xalqın ona olan məhəbbət dolu cazibəsinin sirri bundadır. Əgər belə olmasaydı, bu qədər sevilməzdi...

“...Fikrimcə, vəziyyətindən və statusundan asılı olmayaraq bu və ya digər rolu oynamalı deyilsən və kimliyini saxlamağı bacarmalısan. Mən birinci xanım olmağımı, ilk növbədə, insanların bu və ya digər probleminin həlli üçün obyektiv fürsət kimi dəyərləndirirəm”.





Mehriban xanım Əliyeva bu sözləri beş il bundan əvvəl “Exo planetı” jurnalına müsahibəsində deyib. Əslində, bu fikirlər onun həyat fəlsəfəsinin əsasını təşkil edir. Bəli, Birinci vitse-prezidentin bütün təşəbbüslərinin, gerçəkləşdirdiyi layihələrin mərkəzində İnsana sevgi dayanır.

### Əliyevlərin sevimli məkanı – Lahıc

“Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva bu qədim yaşayış məskəninin qorunmasına və inkişafına daim qayğı göstəriblər.

Lahıcın (İsmayıllı rayonu) Bazar meydanından başlanan mərkəzi küçə çox vaxt qələbəlik olur. Lahıclar bura “Baş küçə” deyirlər. Çünki bu məkanın qədimliyini özündə saxlayan tikililər, misgər emalatxanaları, dükanlar, kürəbənd (çay daşından tikilmiş kanalizasiya xətti), milli suvenirlərin satış yerləri bu küçədə yerləşir. Kimi tez tapmaq istəsən burada axtarmalısan. Yerli və xarici turistlər də bu küçə boyunca hərəkət edirlər. Emalatxanalardan yayılan çəkic səsləri, alış-veriş edənlərin səs-küyü, nallı atların ayaq səsləri, dərman bitkiləri satanların küçənin hər iki tərəfinə düzdükləri çeşidli məhsullar, gecə-gündüz axıb gedən bulaqların şırıltısı daş döşənmiş küçəyə xüsusi ab-hava, görkəm verir”.

Bunları bizə Lahıc Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru, usta Nəzər Əliyev danışır. Amma qarşıda sizi ustanın altı il bundan əvvələ təsadüf etmiş bir səfər və doğum günü ilə üst-üstə düşən açılış mərasimi barədə maraqlı söhbəti gözləyir.

### “Söz verdim – gəldim... Yenə gələcəyəm”

Usta Nəzərlə söhbətimizə ayaq vermək üçün ona emalatxananın divarından asdığı fotoşəkillər barədə soruşduq:

– Usta, eşitdiyimizə görə, siz bir neçə dəfə Azərbaycan Prezidenti və birinci xanımı ilə görüşmüsünüz. Şəkillərdən göründüyü kimi, onlar burada da olublar. Mümkünsə, bizə bu görüşlər barədə danışın.

– Sənətimlə, işimlə bağlı Azərbaycan Prezidenti İlham Əliyevlə bir neçə dəfə görüşmək qismətim olub. Bu görüşlər onun rayonumuza səfərləri zamanı, Bakıda keçirilən sərgilərdə və paytaxtda Novruz bayramı şənliklərində baş tutub. Bir neçə dəqiqəlik o görüşlər yaddaşımda böyük iz qoyub. Həmişə hiss etmişəm ki, cənab İlham Əliyev sənətə, sənətkara xüsusi qayğı ilə yanaşır.

Srağagün emalatxanaya atası ilə bir yeniyetmə gəlmişdi. Alacaqlarını aldılar, sonra şəkillərə baxdılar. Kişi soruşdu ki, Prezidentlə şəkil çəkdirən bu uşaq kimdir? Dedim ki, nəvəmdi. Oğlu dedi ki balaca uşaqdı, Prezidentlə görüşüb, şəkil çəkdirib, amma mən onu heç yaxından görməmişəm. Kaş bir dəfə mən də Prezidentimizlə görüşə biləydim.

Mən təxminən 1996-ildən başlayaraq rayonumuzda və paytaxtımızda keçirilən əksər bayram şənliklərində, turizm sərgilərində iştirak etmişəm. Onda İlham Əliyev prezident olmasa da, Ümummilli lider Heydər Əliyevlə yanaşı əksər sərgilərdə iştirak edirdi. Yəqin sərgilərdə təqdim edilən əl işlərimin bərəkətindən olub ki, sonralar dəfələrlə Prezidentimizlə görüşmüş, söhbətləşmişəm. Onu da deyim ki, cənab Prezident hər dəfə stendimizə baxdıqdan sonra Lahıc haqqında, onun turizmi və orada yaşayan insanların güzəranı haqda maraqlanıb.

– Bəs cənab Prezident buraya nə zaman gəlmişdi?

– 2017-ildə Bakıda keçirilən Novruz şənliyində cəsarət tapıb prezidentimizlə qeyri-rəsmi söhbətləşdim, arzu və istəklərimi ona çatdırdım. Hətta onu Lahıca qonaq dəvət etdim. O, stendimizə baxıb yenə Lahıcın vəziyyətini soruşdu. Dedim ki, hər şey yaxşıdı, qonaq gəlin, bizi sevindirin. Bildirdi ki, Lahıcda olmuşam. Dedim ki, indi Prezident kimi gəlin, halal süfrəmizdə oturun. Əvvəlcə Mehriban xanım dedi ki, getsək yaxşı olar. Sonra Prezident bildirdi ki, söz verirəm, mütləq gələcəyəm. Sağollaşıb getdilər. O zaman mənə elə gəldi ki, yəqin mənim könlümə dəyməmək üçün “gələcəyik” dedilər.

Bu məqamda usta Nəzərin nurlu çöhrəsini ilıq təbəssüm bürüyür və o, söhbətinə davam edir:

– O görüşdən bir neçə ay keçmişdi. Payızın dumanlı, çiskinli günlərinin birində Prezident Şamaxının Dəmirçi kəndinə məscidin açılışına gəlmişdi. Dedilər ki, Lahıca da gələcək. Amma onda Dəmirçi–Lahıc yolu işlək deyildi. Buna görə də Qaranohur yolu ilə gəlməli idi. Lakin güclü yağış yağırdı, yollar təhlükəli idi. Düşünürəm ki, bu səbəbdən Lahıca gəlişi təxirə salındı. Oktyabr ayı idi. İsmayıllının icra başçısı rəhmətlik Mirdamət müəllim mənə



zəng elədi. Dedi ki, Prezident məni yanına çağırıb. Sən də onu Lahıca qonaq çağırmısan. Lahıcla bağlı bizim üçün ən vacib olanları soruşsa, nə deyim – yolu, qaz xəttini, yoxsa məktəb binasını? Dedim, xahiş elə ki, əvvəlcə Lahıca qaz xətti çəkilsin. Bu, qəsəbə üçün həyati məsələdir. O birilərini də de, ancaq qaz xətini birinci de...

O gün axşam xəbərlər proqramında Prezidentin Lahıcın inkişaf etdirilməsi haqqında sərəncamı oxundu. Sərəncamda qeyd etdiyimiz hər üç məsələnin həlli nəzərdə tutulurdu. Çox sevindik.

Tezliklə işlər başlandı. Bir il çəkmədi ki, sərəncam həyata keçirildi. 2018-ci il avqust ayının 26-da cənab İlham Əliyev və Mehriban xanım Lahıca açılışa gəldilər. Prezident yeni çəkilmiş Dəmirçi–Lahıc yolu ilə avtomobili özü idarə edirdi. Həmin gün həm də Mehriban xanımın doğum günü idi. O gün qəsəbədə qaz xətti, yeni müasir məktəb binası və 22 kilometrlik Lahıc–Dəmirçi yolu istifadəyə verildi.

Əlamətdar gün münasibətilə biz ustalarımızın əl işlərindən ibarət sərgi də açmışdıq. Prezident sərgiyə baxdı və mənimlə görüşdü. Sonra dedi ki, yadındadı, söz vermişdim ki, Lahıca gələcəyəm, gəlmişəm, emalatxanana və evinə də gedəcəyəm. Sözün düzü, mən bunu gözləmirdim. Emalatxanaya gəldik. Prezident və xanımı içəri girib xeyli baxdılar. Cənab Prezident soruşdu ki, emalatxanan elə bu balaca yerdi? Dedim, bəli, cənab Prezident, bura mənim dünyamdır. Mən burada işləyə-işləyə hər tərəfi görürəm, gələn qonaqları qarşılayır, hal-əhval tuturam. Bəsimdi, Allah bərəkət versin!

Sonra Prezident və Mehriban xanım misgər Kəbləminin emalatxanasına baxdılar, ustaya uğurlar arzuladılar. Baş küçəyə çıxanda bir neçə nəfər Prezidenti evinə dəvət etdi. Amma o, əvvəlcədən dediyi kimi, bir daha bizim evə gedəcəyini bildirdi.

Bizim küçədə də böyük qələbəlik idi. Uşaq-böyük küçə boyu düzülüb əziz qonaqları alqışlayırdılar. Prezident və Mehriban xanım dayanıb onlarla söhbət etdilər, şəkil çəkdirdilər. Cənab Prezident bizim həyətə girəndə anamgilin xəbəri yox idi. Mən özümü itirmişdim. Tez yüyürüb evdəkilərə dedim ki, Prezident və xanımı bizə gəlib. Əvvəlcə inanmadılar. Sonra tez həyətə çıxıb hörmətli qonaqları qarşıladılar...

O gün təkcə mənim və ailəm üçün deyil, bütün Lahıc əhli üçün sanki bayram idi. Mən inanıram ki, Prezidentimiz Mehriban xanımla birgə yenə Lahıca gələcək. Nə bilmək olar, bəlkə onların Lahıca növbəti səfərləri yenə Mehriban xanımın doğum gününə təsadüf edəcək?

*

“Mən əminəm ki, cəmiyyətdə bütün ağır, çətin problemləri xeyirxahlıqla, insansevərliklə, mərhəmətlə həll etməyə çalışmaq lazımdır. Bu, vətəndaş cəmiyyətinin formalaşmasında ən əsas şərtlərdən biridir. Fikrimcə, vətəndaş cəmiyyəti elə bir cəmiyyətdir ki, orada bütün azadlıqlar mövcuddur. Orada qanunun aliliyi mövcuddur, vətəndaşlar fəaldırlar, cəmiyyətdə birlik və mərhəmət var. Dahi azərbaycanlı, böyük insan Heydər Əliyev məhz belə bir cəmiyyətin qurulması üçün səy göstərib”.

### Etimadı doğruldana inam sonsuzdur

Azərbaycanın birinci xanımına beynəlxalq miqyasda da diqqət yetərincə böyükdür. Bu da Mehriban Əliyevanın və onun rəhbəri olduğu Heydər Əliyev Fondunun Azərbaycanda və xaricdə həyata keçirdiyi uğurlu layihələrlə bağlıdır. Axı, Mehriban xanım Əliyeva dünyada baş verən proseslərə biganə qalmır, UNESCO-nun xoşməramlı səfiri kimi bəşəriyyəti və insanlığı narahat edən ciddi problemlərin – qlobal iqlim dəyişikliyinə qarşı mübarizəyə, “yaşıl dünyaya” öz töhfəsini verməyə çalışır.

“Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam. Buna nail olmağa çalışacağam”.

Mehriban xanım Əliyeva ölkənin Birinci vitse-prezidenti postuna təyin edilən zaman çıxışında bu vədi həm cənab Prezidentə, həm özünə, həm də canından çox sevdiyi Azərbaycan xalqına vermişdi. Üstündən 7 il 6 ay keçəndən sonra tam əminliklə deyə bilərik ki, Mehriban xanım Əliyeva Prezidentin və xalqın etimadını doğruldub. Onun bu müddət ərzində fəaliyyəti Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətti uğurla və layiqincə tamamlayır. Bu qənaəti respublikanın hər bir guşəsində yaşayan azərbaycanlılar, o cümlədən lahıclılar da ürəkdən bölüşürlər...

Yazımıza müdriklərin sözü ilə başlamışdıq. Milli dövlətçilik və müstəqillik tariximizin salnaməsinə adı ilk Birinci vitse-prezident kimi yazılan Mehriban xanım Əliyeva müdriklik çağına qədəm qoyub.

Müdriklik və xoşbəxtlik! İnsan təbiətinin mükəmməlliyinin qoşa zirvəsi sayılacaq bu iki cəhət Mehriban xanım Əliyevanın ümman boyda sevgi ilə süslənmiş ömrünün şanlı manifestidir.

**Səməd MƏLİKZADƏ,**
**İmran BƏDİRXANLI**
**XQ**